Ədalət.- 2021.- 7 yanvar. S. 3.

# Ordumuzun mahir nişançısı şəhid Cəmil Məmmədli - "Sən həmişə mənimlə fəxr edəcəksən!"

Füzuli və Xocavənd uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Cəmil Qarabağı bizə yenidən bəxş edən igidlərimizdəndir. Bu savaş bizə o qədər şeylər öyrətdi, o qədər qəhrəmanlarımızı tanıtdı ki.

28 iyul 1999-cu ildə İsmayıllı rayonunda doğulan Məmmədli Cəmil Habil oğlu 2005-ci ildə Bakı şəhəri Səbail rayon 163 saylı orta məktəbin 1-ci sinfinə qəbul olur, 2016 ci ildə həmin məktəbi bitirir. Daha sonra 2016-cı ildə Azərbaycan Texniki Universitetinin Metallurgiya fakültəsinin, Materialşünaslıq ixtisasına qəbul olur, 2020-ci ildə burada ali təhsilini başa vurandan sonra hərbi xidmətə yollanır.

Cəmil ailə dəyərlərini yüksək tutan, vətəninə, torpağına bağlı, mərhəmətli, zəhmətkeş, xeyirxah əməlləri ilə yetişən bir oğul idi. Torpaqlarımızın işğal altında, düşmən tapdağında olması onu həmişə narahat edirdi. O, böyük sevinc hissi ilə hərbi xidmətə yollanmışdı. Hələ kiçik yaşlarından anasına deyirdi ki, sən mənimlə həmişə fəxr edəcəksən. Məktəbdə təşkil olunan tədbirlərdə daima fəal olmuş, mükafatlar əldə etmişdi. 26 fevral Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan Səbaill rayon orta ümumtəhsil məktəbləri arasında keçirilmiş "Mahir nişançı" adlı Güllə atıcılığı turnirində III yerə layiq görülmüşdü. Eynilə o, hərbi xidmətdə də atıcılıq vəzifəsini icra edirdi. Əsgərlikdə



olduğu zaman anasıyla danışarkən böyük fəxr və qürur hissi ilə demişdi ki, ona Milli Qəhrəman Mübariz İbrahimovun silahından verilmişdi. "Atıcılıq"- bu söz onun qəhrəmanlıq şücaətində də böyük rol oynadı.

Müharibənin başladığı ilk günlərdən son danışığına kimi daima yüksək əhval ruhiyyədə olmuş və mütləq ki, qələbə qazanacaqlarını ailəsinə bildirmişdi. Hələ yeni əsgər olmasına baxmayaraq döyüşlərdə böyük şücaətlik göstərir, Füzuli, Xocavənd döyüşlərində iştirak edir. Son olaraq Oktyabrın 14-dən 15-nə keçən gecə Vətən müharibəsi zamanı Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq Şəhidlik zirvəsinə ucalır.

***Cəmilin bacısı Aybəniz xanım qardaşı haqqında:***

**Cəmil məndən 3 yaş balaca idi. Balacalıqda onu mən qoruyurdum. Amma o böyüdükcə hiss edirdim ki, o mənə arxa-dayaqdı, çünki qardaşlar həmişə bacılara dayaq olur. O böyüdükdən sonra hər yerdə mənim yanımdaydı, hər addımımı izləyirdi. O məni çox istəyirdi, mən də onu lap çox. Elə indi də hara getsəm onun baxışını, ürəyini hiss edirəm o yanımdadır, arxamdadır, mənim ən böyük dayağımdır. Bacılar həmişə yaxşı qardaşlarla fəxr ediblər. Mən Cəmilin sağlığında həmişə fəxr etmişəm, şəhadətindən sonra isə bizim başımızı ən yüksəklərə qaldırdı. O, onsuz da tarixə düşüb, onu gələcək nəsillər həmişə adını anacaq və yad edəcək. Mən də həmişə onu yaşadacağam öz əməllərimlə, öz həyat tərzimlə.**

**Cəmil Məmmədli Prezidentin sərəncamı ilə (ölümündən sonra) "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilir.**

**Eminquey**